# Əvəz Mahmud LƏLƏDAĞ-90



Hörmətli Əvəz müəllim!

Sizi - tanınmış şair-publisist, dramaturqu 90 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1935-ci ildə Zəngəzur mahalının Qarakilsə rayonunun Ağdü kəndində anadan olmusunuz. Vağadi kənd orta məktəbində təhsil almısınız. 1957-ci ildə Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun alman dili fakültəsini bitirib, Ağdü kəndində müəllimlik fəaliyyətinə başlamısınız. Ağdü kənd məktəbində direktor müavini vəzifəsinə qədər yüksəlmisiniz. 1972-ci ildən Sumqayıtda yaşayırsınız. 1972-1982-ci illərdə 15 saylı məktəbdə müəllim, direktor müavini, 1982-1989-cu illərdə 6 saylı məktəbdə, 1995-ci ildə 13 saylı məktəbdə, 1995-2011-ci illərdə 25 saylı məktəbdə direktor işləmisiniz. 1989-1995-ci illərdə Sumqayıt şəhər Təhsil Şöbəsində Həmkarlar İttifaqı Komitəsinin sədri, 2011-2024-cü illərdə Sumqayıt Dövlət Universitetində pedaqoji təcrübə rəhbəri seçilmisiniz.

Bədii yaradıcılığa erkən yaşlardan başlamısınız. "Kəklik" adlı ilk şeiriniz 1958-ci ildə "Sovet Ermənistanı" qəzetində dərc edilib.

"El yada düşdü", "Dağlar marala qaldı", "Ömür payı", "Sinəsi dolu nənəm", "Ağ dovşanın nağılı", "Ömürdən qalan izlər", "Ağ dovşanın ölümü", "Dünya, hara gedirsən", "Yaddan çıxmaz günlərim", "Bizi deyib gəlmə, Mirzə", "Səni gözləyirəm", "Analı dünyam", "Erməni xəstəliyi", "Dağlar, gözləyin məni", "Sənə sözüm var", "Xocalı harayı", "Ana duası, könül dünyası", "Bağışla məni", "Sözümdə vətən ətri var", "Gur işıqlı şəhərim", "Ölməyə vətən yaxşı" adlı kitabın, 500-ə yaxın elmi-publisistik məqalənin, V cilddən ibarət seçilmiş əsərlərin müəllifisiniz.

"Qorxaq", "Tələ", "Batmanla gələn dərd", "Haray, dünya, haray", "Mənim Koroğlu babam" əsərləriniz H.Ərəblinski adına Sumqayıt Dövlət Musiqili Dram Teatrında səhnələşdirilib.

Yeni Azərbaycan Partiyasının İdarə heyətinin üzvüsünüz. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Tərəqqi" medalına layiq görülmüsünüz. Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı ilə, Sumqayıt şəhərinin 70 illiyi münasibətilə, şəhərin sosial-iqtisadi inkişafında xidmətlərinizə görə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" və "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı ilə təltif olunmusunuz.

Hörmətli Əvəz müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**